KIRBY®

HOME CARE SYSTEM

OWNER'S MANUAL



AVALIR2™

QUALITY • RELIABILITY • PERFORMANCE

Kirby® ailəsinə xoş gəlmişsiniz! Kirby® evə qulluq sistemini aldığınıza görə sizə təşəkkür edirik. O, sadəcə tozsoran deyil; o, bütöv evə qulluq sistemidir!

Kirby® evə qulluq sistemini istifadə etməzdən əvvəl bu təlimatı diqqətlə oxuyun. Əgər suallarınız varsa, müstəqil və rəsmi Kirby® Distribyutoruna müraciət edin.

Bu təlimat onlayn olaraq bir neçə dildə təqdim edilir. Təlimata digər dildə baxmaq üçün www.kirby.com saytına keçin.

Yaxud The Kirby Company ilə əlaqə saxlayın:

consumer@kirby.com
ABŞ: 1-800-494-8586 (B.e.-C, 8:00 - 17:00 EST)
Avstraliya: 1-800-781-556
Balkan ölkələri: 0800-328-1247
Kanada: 1-800-494-8586
Müstəqil Dövlətlər Birliyi: +7 495 374 72 82
Avropa: 00-800-5472-9272
Uzaq Şərq: 0800-328-1247
Yaxın Şərq: 0800-328-1247
Rusiya: 7800500-51-46 yaxud 7495374-72-82
Skandinaviya: 80014747, 0200895477 yaxud 0800-328-1247
Cənubi Afrika: 0800-203-222 yaxud 0800-983-044
Birləşmiş Krallıq: 0800-328-1247

Müştəri xidmətləri
The Kirby Company
1920 West 114th Street
Cleveland, OH 44102

Ehtiyat hissələri və ləvazimatlar üçün:

www.kirby.com (mövcud olduğu halda)
imd@kirby.com

ABŞ: 1-800-437-7170 (B.e.-C, 8:00 - 17:00 EST)
Avstraliya: 1-800-781-556
Balkan ölkələri: 0800-328-1247
Kanada: 1-800-437-7170
Müstəqil Dövlətlər Birliyi: +7 495 374 72 82
Avropa: 00-800-5472-9272
Uzaq Şərq: 0800-328-1247
Yaxın Şərq: 0800-328-1247
Rusiya: 7800500-51-46 yaxud 7495374-72-82
Skandinaviya: 80014747, 0200895477 yaxud 0800-328-1247
Cənubi Afrika: 0800-203-222 yaxud 0800-983-044
Birləşmiş Krallıq: 0800-328-1247

Bizim www.kirby.com/welcome/ baş səhifəmizə baxın. Kirby® evə qulluq sisteminiz barədə sizə lazım olan əsas məqamları bir yerə toplamışıq.

Kirby®, Avalir 2™, Kirby Micron Magic®, Tech Drive® və Mini Em-Tor® – The Scott Fetzer Company-nin qeydiyyatdan keçmiş əmtəə nişanlarıdır.

MÜNDƏRİCAT

Kirby® evə qulluq sisteminin hissələri 6

İlk addımlar 11

Cihazın qurulması 11

Enerji dəyişdiricisi 12

Birdəfəlik filtr torbası 13

Cihazın söndürülmüş vəziyyətdə hərəkətə gətirilməsi 14

Şaquli tutacağın kilidlənməsi 15

Cihazın qaldırılması 16

Qayış qaldırıcısı 16

Xarici sabit torbanın və Mini Em-Tor® kollektorunun çıxarılması 18

Şaquli və daşınan təmizləyici 19

Əsas şnurun saxlanması 19

Təmizləmə hündürlüyünün tənzimlənməsi 20

Tech Drive® gücləndiricisi 20

Daşınan təmizləyiciyə çevrilmə 21

Xalçalı pilləkanları daşınan təmizləyici ilə təmizlənməsi 22

Döşəyin daşınan təmizləyici ilə təmizlənməsi 22

Kanistr tipli təmizləyici və qoşmalar 22

Kanistr tipli təmizləyiciyə çevirmə üçün şlanqın qoşulması 22

Qoşmaları şlanqda quraşdırılması 24

Üfürücü/doldurucu 26

Daşınan sıçrayıcı 27

Daşınan sampunlaşdırıcı 29

Əlavə aksessuarlar 30

Zippbrush 30

Çoxsəthli şampun sistemi 31

Çoxsəthli şampun sistemi: bərk döşəmələr 38

Sehirli parıldatma dəsti 45

Kafel üçün dəst 48

Bərk döşəmə lövhəciyi 50

Turboaksessuar 51

İstismar 53

Nasazlıqların aradan qaldırılması 58

Sertifikatlaşdırılıb:	Kirby® modeli və əlavə aksessuarlar:
UL LLC tərəfindən cüt izolyasiyalı cihaz kimi.	Avalir 2™: Model G10D 2930** və 2950** çoxsəthli şampun sistemi 2931** və 2951** döşəməyə qulluq sistemi 2935** Zippbrush 2932** Turboaksessuar sistemi
Şimali Amerikanın xaricində: Dövlət sınaq orqanları tərəfindən müvafiq qaydada sertifikatlaşdırılıb.	Avalir 2™: Model G10E Sentria 220/240 Volt Avalir 2™: Model G10E 220/240 Volt Avalir 2™: Model G10IL 220/240 Volt Avalir 2™: Model G10J 110 Volt Avalir 2™: Model G10B1 127 Volt Avalir 2™: Model G10B2 220 Volt

CE UYĞUNLUQ BƏYANNAMƏSİ

Biz, Kirby®, müstəsna məsuliyyətimiz əsasında bəyan edirik ki, müvafiq hallarda, Kirby® Model G10E tozsoranı aşağıdakı standartlara və ya standartlaşdırılmış sənədlərə cavab verir. Aşağı Gərginlik Direktivi 2006/95/EC və EMC Direktivi 2004/108/EC CE 95 qaydaları daxil olmaqla IEC 60335-1 (EN 60335-1), IEC 60335-2-2 (EN 60335-2-2), EN 55014-1, EN 55014-2, EN 61000-3-2, EN 61000-3-3, EN 50366 və CE 62233.

KIRBY®
1920 West 114th Street • Cleveland, OH 44102 • U.S.A.

BU MƏHSULU İSTİFADƏ ETMƏZDƏN ƏVVƏL BU TƏLİMATI OXUYUN. BU TƏLİMATDA OLAN GÖSTƏRİŞLƏRİ VƏ TƏHLÜKƏSİZLİK XƏBƏRDARLIQLARI ƏMƏL OLUNMADIĞI HALDA SAĞLAMLIĞA ZƏRƏR DƏYƏ BİLƏR. YALNIZ EV İŞLƏRİNDƏ İSTİFADƏ EDİLMƏLİ.

İstifadə təlimatlarını The Kirby Company ilə əlaqə saxlayaraq yaxud www.kirby.com ünvanında onlayn əldə etmək olar

Vacib təhlükəsizlik təlimatları

Təhlükəsizlik təlimatlarının və öhdəliklərinizin ümumi təsviri:

- Sizin və digər şəxslərin təhlükəsizliyi bu təlimatı diqqətlə oxuduğunuzdan və anlamanızdan asılıdır. Əgər suallarınız varsa yaxud bu təlimatda təqdim olunan məlumatı başa düşmürsünüzsə, lütfən The Kirby Company-ə müraciət edin.
- Tozsoranlarla bağlı baş verən əksər bədbəxt hadisələr sadə təhlükəsizlik qaydalarına ya göstərişlərinə etinasızlıqdan baş verir. Mümkün təhlükələrə diqqətli olmaq lazımdır.
- The Kirby Company mümkün təhlükəyə səbəb ola bilən bütün mümkün halları nəzərdə tuta bilməz. Odur ki, bu təlimatda olan xəbərdarlıqların hamısı hərtərəfli ola bilməz. Əgər The Kirby Company tərəfindən xüsusən tövsiyə olunmamış alət, prosedur, iş metodu yaxud istismar texnikası istifadə edilirsə, məhsulun seçdiyiniz istifadə, texniki xidmət yaxud təmir proseduru nəticəsində nasaz vəziyyətə düşməməsini yaxud təhlükəli olmamasını siz təmin etməlisiniz.

⚠DİQQƏT – Yanğın, elektrik şok və ya zədə ehtimalını azaltmaq üçün:

- Cihazı təmizləməzdən və ya texniki xidmətini keçirməzdən əvvəl HƏMİŞƏ elektrik şəbəkədən ayırın.
- Cihaz qoşulmuş olduğu halda onu HEÇ VAXT nəzarətsiz qoymayın.
- Mənzildən kənar yaxud yaş səthlər üzərində HEÇ VAXT istifadə edilməməlidir.
- Zədələnmiş şnur və ya ştepsel ilə istifadə BÜTÜN HALLARDA qadağandır. Əgər cihaz gözlənildiyi şəkildə işləmirsə, yerə salınıbsa, zədələnibsə, mənzildən kənar saxlanılırsa yaxud suya düşübsə, onu Kirby®-nin rəsmi servis mərkəzinə qaytarın.
- Cihazı HEÇ VAXT şnuru üzərində keçirməyin, şnurundan dartmayın, şnurdan qulp kimi istifadə etməyin, qapının arasında bağlamayın və ya iti künclər və bucaqlardan dartmayın.
- Şnuru qızan səthlərdən UZAQ SAXLAYIN.
- Şnuru dartaraq cihazı söndürmək QADAĞANDIR. Şəbəkədən ayırmaq üçün şnuru deyil, ştepseli dartın.
- Ştepsel yaxud cihazı yaş əllərlə işlətmək QADAĞANDIR.

- Yalnız bu təlimatda təsvir edildiyi tərzdə istifadə edilməlidir. Yalnız Kirby®-nin tövsiyə etdiyi qoşmalardan istifadə edin.
- Açıq hissələrə heç bir kənar əşyanı QOYMAYIN. Hər hansı açıq dəliklə istifadə qadağandır; dəliklər toz, pambıq lifi, tük yaxud hava axınını azalda bilən hər hansı əşya ilə bağlı olmamalıdır.

- Saçlarınızı, sallanan geyimi, barmaqlarınızı və digər bədən hissələrinizi dəliklərdən və hərəkət edən hissələrdən uzaq saxlayın.
- Elektromühərrikin valını pambıq lifi, tüklər və qırıntılarla dolmasından qoruyun.
- Benzin kimi alışan və ya yanan mayelərin yığılması yaxud bu cür maddələrin olduğu yerdə istifadəsi QADAĞANDIR.
- Şəbəkədən ayırmazdan öncə bütün idarəetmə düymələrini söndürün.
- Xüsusən pilləkanlarda təmizləyən zaman ehtiyatlı olmaq lazımdır.
- Oyuncaq kimi istifadəsi qadağandır. Uşaqlar tərəfindən və ya onların yaxınlığında istifadə edildiyi halda xüsusi diqqət yetirilməlidir.
    - Bütün Kirby® kimyəvi maddələri uşaqlardan uzaq saxlanılmalıdır. Bu kimyəvi maddələr udulduğu və ya gözə düşdüyü halda qıcıqlanmaya və ya narahatlığa səbəb ola bilər.
    - IEC (Beynəlxalq Elektrotexniki Kommissiya) 60335-1 ilə uyğun olaraq: Əgər onlar cihazın təhlükəsiz istifadəsinə dair nəzarət edilir və göstəriş alıb və həmçinin əlaqəli təhlükələri başa düşürlərsə, bu cihaz yaşı 8-dən çox olan uşaqlar, fiziki və ya əqli qüsurlarla olan yaxud təcrübəsi və biliyi az olan şəxslər tərəfindən istifadə edilə bilər. Uşaqlar cihazla oynamamalıdırlar. Uşaqlar nəzarətsiz olaraq cihazın təmizlənməsini və istismarını keçirə bilməzlər.
- Yalnız çoxsəthli şampun sistemi ilə birgə istifadə üçün nəzərdə tutulan Kirby® təmizləyici məhlullardan istifadə edin. Təlimatın Kirby® evə qulluq məhsulları bölümünə baxın.
- Siqaret, kibrit və ya yanan kömür kimi yanan və ya tüstüləyən əşyaları götürmək qadağandır.
- Toz torbası və/yaxud filtrləri olmadan istifadəsi qadağandır.

⚠ **DİQQƏT** Kaliforniya ştatında:
Kaliforniya ştatının bildirdiyi kimi bu məhsulun tərkibində xərçəng, anadangəlmə qüsurlar və ya digər reproduktiv zərərə səbəb olan maddələr var.

Təhlükəsizlik nişanları və xəbərdarlıq səviyyələri

⚠ Bu, təhlükəsizliyə dair ehtiyat nişanıdır. O, sizi mümkün zədə təhlükələri haqda xəbərdar etmək üçün istifadə edilir.
Diqqət! Ehtiyatlı olun! Təhlükəsizliyiniz təhlükə altında ola bilər.


BİLDİRİŞ Əmlaka zərərlə nəticələnə bilən vəziyyəti əks etdirir.

ⓘ Bu, məlumat nişanıdır. O, məhsulun istifadəsinə dair məsləhətləri göstərmək üçün istifadə edilir.

BU TƏLİMATLARI SAXLAYIN.

KIRBY® EVƏ QULLUQ SİSTEMİNİN HİSSƏLƏRİ

Nö.	Hissə
1	Xarici sabit torba
2	Torbanın buraxılış düyməsi
3	Torbanın dəstək qayışı
4	Birdəfəlik filtr torbası
5	Üst adapter
6	Mini Em-Tor® kollektoru
7	Fırça diyircəyini əks etdirən indikator işığı
8	Qayış qaldırıcısı
9	Hava çıxışı
10	Aşağı daşınma qulpu
11	Yuxarı daşınma qulpu
12	Şaquli tutacaq
13	Tutacağın əyilən kilidi
14	Fənər örtüyü
15	Aksessuar kilidi
16	Mühərrik valı
17	Qoşma zolaq
18	Elektrik ucluq
19	Bamper
20	Enerji dəyişdiricisi
21	Tech Drive® gücləndiricisinin pedalları
22	Ayaq barmağı ilə tənzimləmə pedalları
23	Tutacağın buraxılış düyməsi
Aksessuarlar və qoşmalar	
24	Çoxsəthli şampun sistemi *(əlavə)*
25	Lif süpürgə *(əlavə)*
26	Sehrli parıldatma süpürgəsi *(əlavə)*
27	Kafel üçün fırçalı süpürgə *(əlavə)*
28	Bərk döşəmə lövhəciyi *(əlavə)*


1
2
3
4
5
6
7
8
9
10
11
12
13
14
15
16
17
18
19
20
21
22
23
24
25
26
27
28
31
KIRBY

AKSESSUARLAR VƏ QOŞMALAR

Nö.	Hissə
29	Qoşmalar üçün Kaddy çantası
30	Daşınan sıçrayıcı
31	Səyyar daşınma tutacağı
32	Daşınan şampunlaşdırıcının aləti
33	Universal alət
34	Hava doldurucusu/boşaldıcısı
35	Uzatma boruları
36	Əvəzləyici qayış
37	Toz fırçası
38	Yumşaq mebel üçün ucluq
39	Divar və tavan fırçası
40	Sovurmanın tənzimləmə qulpu
41	Dar yerlər üçün alət
42	Səth ucluğu
43	Qoşma şlanqı
44	Hava girişinin sipəri
45	Zippbrush *(əlavə)*
46	Turboaksessuar *(əlavə)*


29
KIRBY
30
31
32
33
34
40
35
37
38
39
36
41
43
42
44
46
45









AVALIR2™

Cihazın qurulması



1 İki hissəni birgə sürüşdürərək şaquli tutacağı yığın. Şnur qarmağını və yayı bərkitmək üçün vintlə bağlayın.



2 Şaquli tutacağın özülünü korpusun üzərindəki birləşmə nöqtəsinə tərəf basın.



3 Xarici sabit torbadakı torba kilidini şaquli tutacağa qoşun.



4 Oxları eyni xətt üzrə yerləşdikdən sonra Mini Em-Tor® kollektorunu hava çıxışına sürüşdürərək qoşun. Yerində kilidləmək üçün onu cihaza tərəf fırladın.



5 Qayış qaldırıcısındakı qulpu çəkin. Onu qırmızı xətlər eyni xətt üzərində olana qədər saat əqrəbinin əksinə fırladın. Qarmaq ilişməli və elektrik ucluğun içərisində qayışı uzatmalıdır.



6 Cihazın qabağını qaldırmaq üçün ayaq barmağınızla alt tənzimləmə pedalını axıra qədər basın. Fənər örtüyünü qaldırın.



7 Elektrik ucluğun arxasındakı iki qarmağı cihazın qabağındakı qoşma zolaqda yerləşdirin. Elektrik ucluğu cihaza tərəf basaraq aksessuar kilidi ilə bağlayın.



8 Qayış qaldırıcısının tutacağını çıxardıb ondan yaşıl oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin əksinə fırladın. Bu, fırçalı süpürgənin fırlanmasına səbəb olan qayışı işə salacaq. 17-ci səhifəyə baxın. Fənər örtüyünü endirin.



9 Birdəfəlik filtr torbasını tozsoranı işə salmazdan əvvəl quraşdırın. 13-cü səhifəyə baxın.



Enerji dəyişdiricisi

Cihazı işə salmaq və ya söndürmək üçün arxasındakı enerji düyməsinə basın.



Birdəfəlik filtr torbası

Maksimal nəticələrə nail olmaq üçün yalnız orijinal Kirby® birdəfəlik filtr torbalarından istifadə edin və çirk FULL (Dolu) xəttinə çatan zaman onları dəyişin. Birdəfəlik filtr torbası tozsoranı işə salmazdan öncə quraşdırılmalıdır.

İstifadə edilmiş birdəfəlik filtr torbasını çıxartmaq üçün:

1 Cihazı söndürün. Enerji kabelini divar çıxışından ayırın. Xarici sabit torbanı açın. Birdəfəlik filtr torbasını qoşan karton aralığı yuxarı dartıb çəkin.

⚠ Tozsoranı içərisində filtr torbası olmadan istifadə etməyin.

⚠ Birdəfəlik filtr torbasını dəyişməzdən əvvəl enerji kabelini divar çıxışından ayırın və mühərriklə ventilyatorun dayandığını yoxlayın.



Yeni birdəfəlik filtr torbasını quraşdırmaq üçün:

2 Əvvəlcə xarici sabit torba açılmış, üst adapter isə çıxarılmış olmalıdır, sonra isə birdəfəlik filtr torbasının karton aralığını üst adapterin altına bitişik yerləşdirin.



3 Karton aralığı üst adapterin düz səthinə bitişik olaraq yuxarı fırladın.



4 Bərkitmək üçün isə karton aralığın üstündəki lövhəciyi əyin və üst adapterə tərəf basın.

5 Torbanın dəstək qayışının üst adapterdəki kiçik dəlikdən bağlandığını və şpilkanın üzərində bərkidildiyini yoxlayın.

6 Birdəfəlik filtr torbasını xarici sabit torbaya daxil edin və sürgüsünü bağlayın.



Cihazın söndürülmüş vəziyyətdə hərəkətə gətirilməsi

Tech Drive® gücləndiricisi mühərrik işlədiyi zaman cihazın itələnməsini və ya çəkilməsini asanlaşdırır. Mühərrik söndürülmüş zaman cihazı hərəkətə gətirməzdən əvvəl Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirmək lazımdır.



1 Cihazın qabağını qaldırmaq üçün alt tənzimləmə pedalını axıra qədər basın.



2 Sol “N” neytral pedalını aşağı basaraq Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirin.



Şaquli tutacağın kilidlənməsi

Bu cihaz tutacağın əyilən kilidi ilə təchiz edilib; həmin kilid şaquli tutacağı daşınma və saxlanma üçün kilidləyir.

⚠ Tutacağı onun əyilən kilidini açmazdan ƏVVƏL bərk tutun.

Tozsoranla təmizləmək üçün:

Tozsoranla təmizləmək üçün tutacağın əyilən kilidini mərkəzi vəziyyətdə açmaq lazımdır.

BİLDİRİŞ Əmlaka zərər riski. Geriyə çəkməzdən əvvəl tutacağın əyilən kilidini açın. Bu xəbərdarlıq əməl edilmədiyi halda döşəməyə zərər dəyə bilər.



Daşınma üçün:

Cihazı yerdən qaldıran zaman özülü yerində kilidləmək üçün tutacağın əyilən kilidini torbadan uzaqlaşdırın.



Qapı astanasından qaldırmaq üçün:

Tutacağın əyilən kilidini torbaya tərəf çəkin və cihazın qabağını qapı astanasından ya qalın xalçanın üzərindən qaldırmaq üçün kilidlənmiş şaquli tutacağı aşağı basın.



Əlavə saxlanma üsulu:

Şaquli tutacağı yerində kilidləmək üçün şaquli tutacağı döşəməyə yaxın üfüqi vəziyyətə keçirin və tutacağın əyilən kilidini torbadan uzaqlaşdırın. Cihazı bamperinin üzərində yerləşdirin və saxlanma üçün divara söykəyin.



Cihazın qaldırılması

Özülü yerində kilidləmək üçün tutacağın əyilən kilidini torbadan uzaqlaşdırın. Cihazı qaldırmaq üçün torba qolundakı tutacaqdan istifadə edin.



Yaxud cihazı qaldırmaq üçün tutacağın mərkəzindəki aşağı daşınma qulpundan istifadə edin.



Qayış qaldırıcısı

Qayış qaldırıcısı elektrik ucluğun içərisindəki qarmağı fırladır ki, həmin qarmaq qayışı mühərrik valında qaldırır və endirir. O, aşağıdakılar üçün istifadə edilir:

1 **Fırçalı süpürgənin buraxılması:**

Cihazı söndürün. Fənər örtüyünü qaldırın. Qayış qaldırıcısındakı qulpu çəkin. Ondan qayış qaldırıcısını qırmızı oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin əks istiqamətində fırlatmaq üçün istifadə edin. Tutacağı bağlayın. Fənər örtüyünü bağlayın.

Bu vəziyyətdə tozsoran işlədiyi zaman fırçalı süpürgə fırlanmayacaq.

⚠ Cihaz işlədiyi zaman qayış qaldırıcısı fırlanmır.

BİLDİRİŞ Əmlaka zərər riski. Saxlamazdan əvvəl fırçalı süpürgəni yenidən işə salın ki, o, qayış qaldırıcısının qarmağında uzadılmasın. Bu xəbərdarlıq əməl edilmədiyi halda qayışa zərər dəyə bilər.



2 **Fırçalı süpürgənin işə salınması:**

Cihazı söndürün. Fənər örtüyünü qaldırın. Qayış qaldırıcısındakı qulpu çəkin. Ondan qayış qaldırıcısını yaşıl oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin istiqamətində fırlatmaq üçün istifadə edin. Tutacağı bağlayın. Fənər örtüyünü bağlayın.

Bu vəziyyətdə tozsoran işlədiyi zaman fırçalı süpürgə fırlanacaq.



Birbaşa sovurma ilə təmizləmə

Bərk döşəmələri, qalın və incə xalçaları təmizləmək məqsədilə birbaşa sovurma ilə təmizləmə üçün fırçalı süpürgəni işə salmayın.

Birbaşa sovurma təmizləməsindən boş döşəmədə istifadə edən zaman elektrik ucluğu döşəməyə toxunmadan ona maksimal olaraq yaxın endirin.

Bərk döşəmələri təmizləyən zaman Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirin.

Bərk döşəmələrin əlavə qorunması üçün əlavə Bərk döşəmə lövhəciyindən istifadə edin. 50-ci səhifəyə baxın.



Fırça diyircəyini əks etdirən indikator işığı

Elektrik ucluğun üzərində yerləşən fırça diyircəyini əks etdirən indikator işığı fırça diyircəyi fırlanan zaman işıqlanır.

Əgər Fırça diyircəyini əks etdirən indikator işığı sayrışırsa və ya işıqlanmırsa, qayış düz işə salınmamış ola bilər yaxud qayışı dəyişmək lazımdır. 53-cü səhifəyə baxın.



Xarici sabit torbanın və Mini Em-Tor® kollektorunun çıxarılması

Mini Em-Tor® kollektoru birdəfəlik filtr torbasına çatmayan iri, ağır hissələri tutur.

1 Mini Em-Tor® kollektorunun özülünü götürüb, onu cihazdan kənara fırladıb qaldıraraq çıxardın.



2 Torbanın buraxılış düyməsinə basaraq xarici sabit torbanın üstünü cihazdan kənarlaşdırın.



3 Hissəcikləri boşaltmaq üçün Mini Em-Tor® kollektorunun ağzını qazetin üstündə yerləşdirib silkələyin. Bunu bitirdikdən sonra Mini Em-Tor® kollektorunu yerinə qaytarıb qoşun.

ⓘ Mini Em-Tor® kollektorunu yerində bərkidib kilidləyin, əks halda cihaz işləməyəcək. (O, işə salınmayacaq).

BİLDİRİŞ Əmlaka zərər riski. Xırda pullar kimi ağır əşyaları bilərəkdən tozsorana çəkməyin. Bu xəbərdarlıqlar əməl edilmədiyi halda ventilyatora zərər dəyə bilər.

Əsas şnurun saxlanması

Bir neçə qarmaq şnuru şaquli tutacağa bərkidir.



1 Şnuru şaquli tutacağın özülündə və yan tərəfində yerləşən qarmaqlara salın.



2 Yuxarı şnur qarmağı qaldırılmış vəziyyətdə ikən şnuru cihazın arxasına tərəf bükün və qarmağın saxlayıcısının altından keçirin.

ⓘ Elektrik şnuru bu saxlayıcıya yalnız yuxarı şnur qarmağı qaldırılmış vəziyyətdə olarkən daxil etmək və ya oradan çıxartmaq olar. Yuxarı şnur qarmağı şnuru aşağıya yönəldirilmiş vəziyyətdə saxlamaq üçün nəzərdə tutulub.



3 Saxlanma üçün şnuru yuxarı və aşağı şnur qarmaqlarına sarıyın.



4 Yuxarı şnur qarmağının aşağı fırladın ki, şnur istifadə üçün açılsın. Birinci dövrə saxlayıcıda qalacaq.



Təmizləmə hündürlüyünün tənzimlənməsi

Qabaq çarxda yerləşən ayaq barmağı ilə tənzimləmə düyməsi elektrik ucluğu qaldırır və endirir. Nömrələnmiş parametrlər xalça və döşəmələr üçündür. Nöqtəli parametrlər aksessuarlar və digər təmizləmə məqsədləri üçün nəzərdə tutulur.



1 Cihazı işə salın. Elektrik ucluğu ən aşağı vəziyyətinə qədər salmaq üçün ayaq barmağı ilə üst tənzimləmə pedalına təkrar olaraq basın.



2 Elektrik ucluğu istədiyiniz vəziyyətə qaldırmaq üçün ayaq barmağı ilə alt tənzimləmə pedalına addım-addım basın.

Hər qaldırılan addımla səslənən çıqqıltıya diqqət yetirin. İstədiyiniz hündürlüyə qədər addımları sayın.

Cihazın qaldırılması	**Məqsəd**
Ən aşağı vəziyyət	Tövsiyə olunur: Xalçalar
1 addım yuxarı	Əlavə: Dərinxovlu xalçaların təmizlənməsi
2 addım yuxarı	Əlavə: Uzunlifli xalçaların təmizlənməsi
3 addım yuxarı	Tövsiyə edilir: Ev heyvanlarının tüklərinin təmizlənməsi
4+ addım yuxarı	Şlanq və qoşmalar



Tech Drive® gücləndiricisi

Tech Drive® gücləndiricisi mühərrik işlədiyi zaman cihazın itələnməsini və ya çəkilməsini asanlaşdırır.

1 D hərfi ilə hərəkəti bildirmək üçün nişanlanmış pedalı aşağıya basaraq Tech Drive® gücləndiricisini işə salın. Nəticədə isə cihaz işlədiyi zaman onu hərəkət etdirmək üçün əlavə cəhdlərə zərurət aradan qaldırılır.



2 N hərfi ilə "neytral" bildirmək üçün nişanlanmış pedalı aşağıya basaraq Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirin. Bu, mühərrik işləmədiyi zaman cihazın itələnməsini və ya çəkilməsini asanlaşdırır.

BİLDİRİŞ Əmlaka zərər riski. Yumşaq kafeli və ya bərk döşəmələri təmizlədikdən əvvəl Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirin. Bu xəbərdarlıq əməl edilmədiyi halda döşəməyə zərər dəyə bilər.



Daşınan təmizləyiciyə çevrilmə

Pilləkanların və döşəklərin daha rahat təmizlənməsi üçün daşınan təmizləyici şaquli tozsoranın tam gücünü qısa tutacaqla birgə təmin edir.



1 Cihazı söndürün və şəbəkədən ayırın. Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirin. Torbanın buraxılış düyməsinə basaraq xarici sabit torbanı cihazdan kənarlaşdırın.



2 Şnuru şaqulu tutacaqdan uzaqlaşdırın. Şaquli tutacağın özülündəki tutacağın buraxılış düyməsinə basın, şaquli tutacağı yuxarı yuvasından bayıra çəkin. (Torba aydınlıq üçün göstərilmir)



3 Daşınan tutacağı şaquli tutacağın qoşulduğu yuvaya daxil edin.



4 Xarici sabit torbanı yarısına bükün və torba kilidini daşınan tutacaqdakı yuvaya sürgüsü üzüyuxarı yerləşdirin.

BİLDİRİŞ Əmlaka zərər riski. Daşınan təmizləyicini yumşaq mebel üzərində istifadə etməyin. Bu xəbərdarlıq əməl edilmədiyi halda mebelə zərər dəyə bilər.



Xalçalı pilləkanların daşınan təmizləyici ilə təmizlənməsi

Sol “N” neytral pedalını basaraq Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirin. Cihazın arxa hissədən dəstəkləyərək onu xalçalı pilləkanda yerləşdirin. Cihaz yerində dayandığı vəziyyətdə olarkən onu işə salın.

⚠ İstifadə zamanı saçlarınızı, sallanan geyimi/zərgərlik məmulatlarını, barmaqlarınızı və digər bədən hissələrinizi cihazın dəliklərindən və hərəkət edən hissələrdən uzaq saxlayın.

⚠ Pilləkanları təmizləyən zaman Tech Drive® gücləndiricisinin pedalını neytral vəziyyətə keçirmək lazımdır.



Döşəyin daşınan təmizləyici ilə təmizlənməsi

Tozsoranla təmizləmə zamanı döşəyi bükülməyə qarşı qorumaq üçün döşəkağını və ya döşək örtüyünü çarpayıda saxlayın.

Sol “N” neytral pedalını basaraq Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirin. Fənər örtüyünü qaldıraraq və qırmızı oxlar eyni xətt üzərində olana qədər qayış qaldırıcısını saat əqrəbinin əks istiqamətində fırladaraq fırça diyircəyini buraxın. Fənər örtüyünü endirin. Cihazı döşəyin üzərinə yerləşdirin. Cihaz yerində dayandığı vəziyyətdə olarkən onu işə salın.

BİLDİRİŞ Əmlaka zərər riski. Fırça diyircəyinin kilidini açın, Tech Drive® gücləndiricisini neytrala keçirin və döşəkağını döşəkdə saxlayın. Bu xəbərdarlıqlar əməl edilmədiyi halda döşəyə zərər dəyə bilər.



Elektrik ucluğu çıxardın: kanistr tipli təmizləyiciyə çevirmə üçün şlanqın qoşulması

Tozun, hündür və ya kiçik sahələrin təmizlənməsi üçün sistemdən şlanq və qoşmalarla olan kanistr tipli təmizləyici kimi istifadə edin



1 Cihaz söndürülmüş və elektrik şəbəkəyə qoşulmamış olduğu zaman ayaq barmağı ilə alt tənzimləmə pedalını axıra qədər basın.



2 Sol “N” neytral pedalını basaraq Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirin.



3 Fənər örtüyünü qaldırın. Qayış qaldırıcısındakı qulpu bayıra çəkin. Ondan qayış qaldırıcısını qırmızı oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin əks istiqamətində fırlatmaq üçün istifadə edin.



4 Elektrik ucluğu buraxmaq üçün aksessuar kilidini saat əqrəbinin əksinə fırladın. Elektrik ucluğu qaldırıb kənarlaşdırın. Mühərrikin valından pambıq lifini, tükləri ya qırıntıları təmizləyin.

⚠ Mühərrikin valı isti ola bilər. Pambıq lifini, tükləri ya qırıntıları təmizləməzdən öncə onun soyumasını gözləyin.

⚠ Elektromühərrikin valını pambıq lifi, tüklər və qırıntılarla dolmasından qoruyun. Bu xəbərdarlıqlar əməl olunmadığı halda qoşma şlanqa zərərlə və həmçinin sağlamlığa kiçik yaxud ortadərəcəli zədə ilə nəticələnə bilər.



5 Qoşma şlanqın qarmaqlarını qoşma zolağın üzərində yerləşdirin. Qoşma şlanqın dəliyini cihaza tərəf və yuxarı çəkin. Aksessuar kilidini yerində bağlamaq üçün onu saat əqrəbinin istiqamətində fırladın. Fənər örtüyünü endirin. Cihazı işə salın.

ⓘ Şaquli tutacaq və ya daşınan tutacaq qoşma şlanqla istifadə edilə bilərlər.

ⓘ Əgər qoşma şlanq qoşulduqdan sonra cihaz işə salınmırsa, 58-ci səhifəyə baxın.



Qoşmaların şlanqda quraşdırılması

Alətləri şlanqa qoşmaq üçün şlanqın kiçik ucunu fırladaraq alətə ehtiyatla yeridin.



Uzatma boruları

Uzatma üçün bir və ya iki uzatma borusunu qoşun.



Səth ucluğu

Üstü örtülməmiş döşəmədə və alçaq mebelin altında istifadə üçün.



Toz fırçası

Konturlu və ya qeyri-adi örtüklərdən tozu təmizləmək üçün.

BİLDİRİŞ Əmlaka zərər riski. Toz fırçasından televizor ekranlarında istifadə etməyin. Bu xəbərdarlıqların əməl olunmaması əmlaka zərərlə nəticələnə bilər.



Yumşaq mebel üçün ucluq

Təmiz yumşaq mebel, xalçalı pilləkanlar və geyim. Avtomobil salonlarının təmizlənməsi üçün.



Dar yerlər üçün çıxarılan fırça ilə alət

Dar yerlər üçün fırçalı alətdən künclərdəki çirki, düymə çökəklərini, radiatorları və sürüşən qapıların relslərini təmizləmək üçün istifadə edin.

Çatları, boşluqları, küncləri, oyuqları və dar boşluqları təmizləmək üçün fırçanı çıxardın.



Sovurmanın tənzimləmə qulpu

Sovurmanın səviyyəsini tənzimləmək üçün sovurmanın tənzimləmə qulpunda siyirtməni sürükləyin.

Aşağıya çatmaq üçün sovurmanın tənzimləmə qulpundan uzatma borularının əvvəlində istifadə edin.



Divar və tavan fırçası

Divar və tavan fırçasını sovurmanın tənzimləmə qulpuna qoşun ki, divarların və tavanların təmizlənməsində müvafiq bucaq təmin olunsun.

Qapı çərçivələrini, çıxıntıları və ya rəfdə kitabları təmizləmək üçün divar və tavan fırçasını 180° fırladın.



Universal alət

Avtomobil salonunun xalçalarını təmizləmək üçün istifadə edilir.



Hava doldurucusu/boşaldıcısı

Kiçik yerləri təmizləmək və ya hava ilə doldurulan oyuncaq və ya döşəkləri hava ilə doldurmaq üçün hava boşaldıcısından istifadə edin.

Hava doldurucusundan istifadə etmək üçün 26-ci səhifəyə baxın.

BİLDİRİŞ Əmlaka zərər riski. Hava doldurucusundan/boşaldıcısından sıçrayışlar arasında qısa fasilə ilə 60-saniyəlik sıçrayışlarla istifadə edin. Bu xəbərdarlıqlar əməl olunmadığı halda mühərrikin həddən artıq qızmasına və ventilyator pərlərinə zərərlə nəticələnə bilər.



Üfürücü/doldurucu

Şlanqı hava çıxışına qoşaraq Kirby® sistemini üfürücüyə çevirin.



1 Elektrik ucluğu çıxardın. 22-ci səhifəyə baxın. Hava girişinin sipərinin arxasındakı qarmaqları cihazın qabağındakı qoşma zolaqda yerləşdirin. Hava girişinin sipərini cihaza tərəf yuxarıya basın və kilidləmək üçün aksessuar kilidini saat əqrəbinin istiqamətində fırladın.



2 Xarici sabit torbanı çıxardın. Üstünü çıxartmaq üçün torbanın buraxılış düyməsinə basın. Sonra Mini Em-Tor® kollektorunun özülünü götürüb, onu cihazdan kənara fırladıb qaldıraraq çıxardın.



3 Qoşma şlanqını hava çıxışına qoşun. Qoşma şlanqının iri ucundakı oxu hava çıxışının oxu ilə eyni xətt üzərinə gətirin. Qoşma şlanqını yerində bağlamaq üçün onu saat əqrəbinin istiqamətində fırladın.



4 Hava doldurucusu/boşaldıcısını qoşun. O, oyuncaqları, hava döşəklərini və ya digər doldurulan aşağıtəzyiqli əşyaları hava ilə 1 psi təzyiqinə qədər (hava təzyiqinin funt x kv. düym) hava ilə doldurmaq üçün istifadə edilir. Əgər cihaz üfürücü rejiminə çevrildikdən sonra işləmirsə, 58-ci səhifəyə baxın.

BİLDİRİŞ Əmlaka zərər riski. Hava doldurucusundan/boşaldıcısından sıçrayışlar arasında qısa fasilə ilə 60-saniyəlik sıçrayışlarla istifadə edin. Bu xəbərdarlıqlar əməl olunmadığı halda mühərrikin həddən artıq qızmasına və ventilyator pərlərinə zərərlə nəticələnə bilər.



Daşınan sıçrayıcı

Daşınan sıçrayıcı yalnız üfürücü rejimdə istifadə edilir. 26-ci səhifəyə baxın. O, su əsasında olan mayeləri sıçramaq üçün istifadə edilir.



1 Daşınan sıçrayıcını qurun. Qabın qapağını açın və ¾ qədər alışmayan maye ilə doldurun.

Qabı bərk bağladıqdan əvvəl sifon borusunun daşınan sıçrayıcıya qoşulmuş olduğunu yoxlayın. Daşınan sıçrayıcını qoşma şlanqın ucuna qoşun.

BİLDİRİŞ Əmlaka zərər riski. Əgər daşınan sıçrayıcını istifadə zamanı əymək lazımdırsa qabda daha az məhlul istifadə edin. Bu xəbərdarlıqların əməl olunmaması mayenin tökülməsinə və əmlaka zərərlə nəticələnə bilər.

⚠ Sıçrayıcıda heç vaxt yağ və ya həlledici əsasında olan boyadan və ya digər alışan və ya yanan mayelərdən istifadə qadağandır.



2 Daşınan sıçrayıcını üfüqi vəziyyətdə saxlayın. Cihazı işə salın. Sıçrama tərzini yoxlamaq üçün tətiyi sıxaraq məhlulu qazetin üstünə səpin. Sıçrama tərzini tənzimləmək üçün tətiydəki düyməni işə salın.



3 Tətiyi sona qədər sıxın və sıçrayan zaman yavaş, süpürücü hərəkətlərlə davam edin.

⚠ Daşınan sıçrayıcıda insanın tənəffüs sisteminə, gözlərinə və ya dəriyə təsir edə və ya zərər verə biləcək pestisidlərdən və ya digər kimyəvi məhsullardan istifadə qadağandır.



Daşınan sıçrayıcının təmizlənməsi

1 Daşınan sıçrayıcını istifadədən dərhal sonra təmizləyin. Qabı boşaldın. YALNIZ ılıq sabunlu su ilə təmizləyin.

⚠ Daşınan sıçrayıcını alışan təmizləyici mayelərlə heç vaxt təmizləməyin.



2 Sifon borusunu çıxardıb yuyun. (Təmizlədikdən sonra onu yerinə qaytarmaq lazımdır)



3 Ucluğun püskürücüsünün qabağında olan iki yaya basaraq onu çıxardıb hərtərəfli yaxalayın. Qabı su ilə doldurun, yerinə qaytarıb qoşun və şəffaf olana qədər suyu səpələyin.



Daşınan sampunlaşdırıcı

Daşınan sampunlaşdırıcı tam ölçülü Çoxsəthli şampun sistemi ilə təmizlənə bilməyən pilləkanları və kiçik sahələri şampunla təmizləmək üçün istifadə edilir.

1 Təmizlənəcək sahəni tozsoranla təmizləyin.



2 Daşınan sampunlaşdırıcını daşınan sıçrayıcı ilə eyni qaydada yığın. 27-ci səhifəyə baxın. Qabı birinci xəttə qədər su ilə doldurun. Maye qabın ikinci xəttinə çatana qədər Kirby® Xalça şampununu əlavə edin.

3 Daşınan şampunlaşdırıcının qapağını daşınan sıçrayıcının ucuna qoşun.



4 Cihazı işə salın və köpük yaratmaq üçün tətiyə basın. Köpüyün həcmini tənzimləmək üçün tətiydəki düyməni işə salın.



5 Köpüyü birbaşa olaraq təmizlənən sahəyə səpin. Köpüyü səthin üzərinə təmiz yumşaq fırça və ya süngərlə itirilənə qədər yeridin. Səthin tam qurumasını gözləyin və sonra tərkibində çirk və qurum olan quru qalığı tozsoranla təmizləyin.

BİLDİRİŞ Əmlaka zərər riski. Daşınan şampunlaşdırıcını yumşaq mebel materialında, məsələn, ipək, zərxara və ya məxmər üzərində istifadə etməyin. Əgər şübhələnirsinizsə, kiçik bir parça üzərində sınayın. Sınaq parçasının quruduğunu gözləyin və sonra şampunlamazdan əvvəl onu yoxlayın.



6 İstifadədən sonra daşınan şampunlaşdırıcını hərtərəfli təmizləyin. 28-cu səhifəyə baxın.



Zippbrush

Zippbrush yumşaq mebelin və xalçalı pilləkanların təmizlənməsi üçün istifadə edilə bilər. O, avtomobil salonlarının təmizlənməsi üçün də istifadə edilə bilər.

Ən yaxşı nəticələr üçün Zippbrush-a çox bərk basmayın. O, təmizlənən səth üzərində ehtiyatla hərəkət etdirilərək maksimal sürətlə fırlanmalıdır.

⚠ Saçlarınızı, sallanan geyimi/zərgərlik məmulatlarını, barmaqlarınızı və digər bədən hissələrini fırlanan Zippbrush-dan uzaq saxlayın. Fırçanı təmizlənən səth üzərində düz saxlamaq lazımdır çünki fırça hissəcikləri kənara sıçraya bilər.

BİLDİRİŞ Zərif materialların üzərində Zippbrush-dan istifadə etməyin. Bu xəbərdarlığın əməl olunmaması əmlaka zərərlə nəticələnə bilər.



İstifadədən sonra Zippbrush-ın təmizlənməsi:

1 Zippbrush-ı şlanqdan çıxardın. Kənar fırça halqasını buraxmaq üçün fırçanın qabaq tərəfindəki düyməyə basın.



2 Turbini alətdən qaldırın və onun içərisindən və alətin boşluğundan bütün hissəcikləri və ya yığılmış qalıqları çıxardın.



3 Turbini alətdəki yerinə qaytarın və onun dişləri yuvaları tutana qədər fırladın. Fırça halqasını yerinə bağlayın.



Çoxsəthli şampun sistemi

Çoxsəthli şampun sistemi xalçaların şampunla yuyulması və bərk döşəmələrin təmizlənməsi üçün istifadə edilir.



Xalçalar üçün şampun sisteminə çevrilmə

Xalçaların təmizliyini mütəmadi olaraq şampunla yuyaraq qoruyun. Mümkün ləkələri və çox gəzilən yerləri daha çox təmizləyin. Şampunla yumazdan öncə xalçanı tozsoranla tam təmizləyin.

1 Elektrik ucluğu çıxardın. 22-ci səhifəyə baxın.



2 Xarici sabit torbanı çıxardın. 18-ci səhifəyə baxın.



3 Zibil qutusunu çoxsəthli şampun sistemindən qaldırıb çıxardın.



4 Xalçaların şampunla yuyulması zamanı xalça üçün fırça diyircəyi istifadə edilməlidir. Əgər xalçanın fırça diyircəyi artıq daxil edilibsə, 8-ci addıma keçin.

Lazım gələrsə, xalça üçün fırça diyircəyini daxil edin. Tutacaqdan istifadə edərək çoxsəthli şampun sistemi ucluğunun qayış qaldırıcısını yaşıl oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin istiqamətində çevirin.



5 Çoxsəthli şampun sistemini alt-üst çevirin və lif süpürgəni çıxartmaq üçün qayışı boşaldaraq yuxarı çəkin.



6 Çoxsəthli şampun sistemindən qayışı xalça üçün fırça diyircəyinin mərkəzinə sürüşdürün və onu çoxsəthli şampun sisteminə daxil edin.



7 Çoxsəthli şampun sistemini çevirin. Qayışı barmağınızla bərabərləşdirdiyiniz zaman onu qırmızı xətlər eyni xətt üzərində olana qədər saat əqrəbinin əksinə fırlatmaq üçün qayış qaldırıcısındakı qulpdan istifadə edin. Qayış qaldırıcısının qarmağı ilişərək qayışı uzadacaq.



8 Çoxsəthli şampun sisteminin aşağısındakı arakəsmə yerində olduğunu yoxlayın. Lazım gələrsə, arakəsmə düz tərəfini fırça diyircəyinə tərəf daxil edin.

BİLDİRİŞ Əmlaka zərər riski. Xalçada istifadə etdikdən əvvəl arakəsmənin çoxsəthli şampun sistemində yerləşdirilmiş olduğunu yoxlayın. Bu bildiriş əməl olunmadığı halda əmlaka zərər dəyə bilər.



9 Cihazın qabağını qaldırmaq üçün ayaq barmağınızla alt tənzimləmə pedalını sona qədər aşağı basın.



10 Çoxsəthli şampun sisteminin arxasındakı qarmaqları qoşma zolağına qoşun.



11 Çoxsəthli şampun sistemini cihaza tərəf yuxarı basaraq aksessuar kilidini saat əqrəbinin istiqamətində fırladaraq bərkidin.



12 Üzərindəki tutacaqdan istifadə edərək çoxsəthli şampun sistemi ucluğunun qayış qaldırıcısını yaşıl oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin istiqamətində çevirin. Fənər örtüyünü endirin.



13 Zibil qutusunu daxil edin.



14 Şampun rezervuarında köpük pərdəsinin və köpük süngərinin yerində olduğunu yoxlayın. Əgər onlar yerlərində deyilsə, lazımi köpüklənmə əmələ gəlməyəcək.



15 Şampun rezervuarını çanaqda doldurmaq və ya boşaltmaq lazımdır. Şampun rezervuarının üstündəki iri qapağı fırladıb açın. Köpüyün nəzarət klapanını OFF (söndürülmüş) vəziyyətinə keçirin. Rezervuarı ilıq su (isti olmamalıdır) ilə aşağıdakı cədvələ uyğun olaraq doldurun.

Xalça şampununu ölçmək üçün şampun qabının qapağından deyil şampun rezervuarının üstündəki iri qapaqdan istifadə edin. Şampunun dolu qapaqlarının müvafiq sayını aşmayın, əks halda həddən artıq köpüklənmə baş verəcək.

SAHƏ	SU	ŞAMPUN
Kiçik	Şampun rezervuarının 1-ci xətti	1 dolu qapaq
Orta	Şampun rezervuarının 2-ci xətti	2 dolu qapaq
Böyük	Şampun rezervuarının 3-cü xətti	3 dolu qapaq

İri qapağı şampun rezervuarına salın.

ⓘ Rezervuarı üçüncü xəttinə qədər doldurmuş məhlul sahəsi təxminən 10 x 12 fut (3x3,5 m) olan böyük xalçanı təmizləyə bilər.

⚠ Yalnız bu məhsulla istifadə üçün nəzərdə tutulan Kirby® Xalça şampunu kimi Kirby® təmizləyici məhlullardan istifadə edin. Bu xəbərdarlıq əməl edilmədiyi halda daxili elementlərə zərərlə nəticələnə bilər.



16 Qol şlanqını çoxsəthli şampun ucluğuna bərk birləşdirin.



17 Mayeni cihazın və ya döşəmənin üzərinə sıçramadan şampun rezervuarının aşağısındakı boşluğu hava çıxışının üzərinə yerləşdirin.

Şampun rezervuarını yerində kilidləmək üçün onu cihaza tərəf fırladın.



18 Qol şlanqını çoxsəthli şampun rezervuarının aşağısına qoşun.



Xalçaların şampunlanması

1 Çoxsəthli şampun sistemi ən aşağı vəziyyətdə olana qədər ayaq barmağı ilə tənzimləmənin üst pedalına basın.



2 Köpüyün nəzarət klapanını xalça vəziyyətinə keçirin. Cihazı işə salın. Cihaz geriyə və irəli hərəkət etdikcə köpük buraxılır və fırça xalçanın üzərində işləyəcək. Təmizlənməni asanlaşdırmaq üçün ardıcıl olaraq xalçanın kiçik hissələrini şampunla yuyun.

3 Köpüyün nəzarət klapanını söndürülmüş vəziyyətə keçirin. Şampunu xalçanın üzərində hərtərəfli istifadə etmək üçün cihazı şampunlu sahənin üzərində bir neçə dəfə müxtəlif istiqamətlərdə keçirin.



4 Lazım gələrsə, şampunla təmizləmə zamanı zibil qutusunu boşaldın. Zibil qutusu örtüyünün qırağındakı göstəriciləri yoxlayın. Maye göstəricilərdən aşağıda olan sahəni doldurmağa başlayan zaman zibil qutusunu boşaltmaq lazımdır.

Cihazı söndürün. Zibil qutusunu qaldırıb çanaqda boşaldın. Sistemi yenidən işə salmazdan və şampunlamanı bərpa etdikdən əvvəl zibil qutusunu yerinə qaytarın.



5 Xalça sərbəst qurumalıdır. Cihazı düz tozsoran rejiminə çevirin. Tərkibində çirk və qurum olan quru qalığı tozsoranla təmizləyin.



Çoxsəthli şampun sisteminin təmizlənməsi

1 Köpüyün nəzarət klapanını söndürülmüş vəziyyətə keçirin.



2 Ucluğu və qutunu qaldırmaq üçün ayaq barmağınızla alt tənzimləmə pedalını sona qədər aşağı basın. Cihaz bir neçə dəqiqə sərbəst işləməlidir ki, hər hansı qalıq şampun və su fırçadan kənarlaşdırılsın. Cihazı söndürün və şəbəkədən ayırın.



3 Zibil qutusunu qaldırıb çanaqda boşaldın. Qutunun bütün hissələrini hərtərəfli yaxalayın və kənarda qurudun.



4 Qol şlanqını çoxsəthli şampun rezervuarının aşağısından ayırın.



5 Fənər örtüyünü qaldırın. Qayış qaldırıcısını qırmızı oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin əks istiqamətində fırladın.



6 Aksessuar kilidini saat əqrəbinin əks istiqamətində fırladın. Çoxstəhli şampun sistemini qaldırıb çanağa daşıyın.



7 Çoxsəthli şampun sisteminin bütün sahələrini yaxalayın və fırça tüklərindən bütün qalıqları kənarlaşdırın. Artıq qalmış suyu cihazdan silkələyib boşaldın. Bütün hissələr hərtərəfli qurumalıdır.



8 Şampun rezervuarını cihazdan çıxartmaq üçün fırladaraq qaldırın.



9 Şampun rezervuarında qalıq mayeni çanağa boşaldın. Köpük pərdəsinin qapağını, rezervuar qapağını və süngər filtrini çıxardıb təmizləyin. Şampun rezervuarını soyuq su ilə yaxalayın və köpük pərdəsinin qapağını, rezervuar qapağını və süngər filtrini yerlərinə qaytarın. Yenidən yığılmazdan əvvəl bütün hissələr hərtərəfli qurumalıdır.



Çoxsəthli şampun sistemi: bərk döşəmələr

Lif süpürgəni daxil edərək və Kirby® bərk döşəmə təmizləyicisi ilə çoxsəthli şampun sistemini bərk döşəmələri təmizləmək üçün istifadə etmək olar. Bərk döşəmələri təmizləməzdən əvvəl iri qırıntıları tozsoranla və ya süpürgə ilə yığın.



Bərk döşəmələrin təmizləyicisinə çevrilmə

1 Elektrik ucluğu çıxardın. 22-ci səhifəyə baxın.



2 Xarici sabit torbanı çıxardın. 18-ci səhifəyə baxın.



3 Zibil qutusunu çoxsəthli şampun sistemindən qaldırıb çıxardın.



4 Bərk döşəmələri təmizləyən zaman lif süpürgə istifadə edilməlidir. Əgər lif süpürgə artıq daxil edilibsə, 8-ci addıma keçin.

Lazım gələrsə, xalça üçün fırça diyircəyini çıxardıb lif süpürgəni daxil edin. Tutacaqdan istifadə edərək çoxsəthli şampun sistemi ucluğunun qayış qaldırıcısını yaşıl oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin istiqamətində çevirin.



5 Çoxsəthli şampun sistemini alt-üst çevirin və xalça şampunu üçün fırça diyircəyini çıxartmaq üçün qayışı boşaldaraq yuxarı çəkin.



6 Çoxsəthli şampun sistemindən qayışı lif süpürgənin mərkəzinə sürüşdürün və onu çoxsəthli şampun sisteminə daxil edin.



7 Qayışı barmağınızla bərabərləşdirdiyiniz zaman onu qırmızı xətlər eyni xətt üzərində olana qədər saat əqrəbinin əksinə fırlatmaq üçün qayış qaldırıcısındakı qulpdan istifadə edin. Qayış qaldırıcısının qarmağı ilişərək qayışı uzadacaq.



8 Cihazın qabağını qaldırmaq üçün ayaq barmağınızla alt tənzimləmə pedalını sona qədər aşağı basın.



9 Çoxsəthli şampun sisteminin arxasındakı qarmaqları qoşma zolağına qoşun.



10 Çoxsəthli şampun sistemini cihaza tərəf yuxarı basaraq aksessuar kilidini saat əqrəbinin istiqamətində fırladaraq bərkidin. Üzərindəki tutacaqdan istifadə edərək şampun ucluğunun qayış qaldırıcısını yaşıl oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin istiqamətində çevirin. Fənər örtüyünü endirin.



11 Zibil qutusunu daxil edin.



Bərk döşəmələrin təmizlənməsi

Bərk döşəmələri təmizləyərkən həmişə bir kiçik miqdarda mayedən istifadə edin. Maye heç vaxt bərk döşəmələrdə quruyub qalmamalıdır. Germetikləşdirilməmiş döşəmələrdə istifadə qadağandır. Həmişə döşəmə istehsalçısının təmizləmə təlimatlarına əməl edin. Bu xəbərdarlıqların əməl olunmaması əmlaka zərərlə nəticələnə bilər.



Ağac və ya laminat döşəmələrin təmizlənməsi

1 Boş şampun rezervuarını hava çıxışına qoşun. Qol şlanqını qoşmağa ehtiyac yoxdur.



2 Kirby® bərk döşəmə üçün hazır təmizləyicisinin kiçik duman damcılarını döşəmədə kiçik sahəyə səpin. Döşəməni həddən artıq sulamayın.



3 Tech Drive® gücləndiricisini neytral rejimə keçirin və Kirby cihazını işə salın.



4 Lif süpürgəsi döşəməyə toxunana qədər ayaq barmağınızla üst tənzimləmə pedalına təkrar olaraq basın. Kirby® sistemini təmizlənəcək sahənin üzərinə gətirin. Lazım gələrsə, əlavə təmizləyicini səpin.



5 Lazım gələrsə, şampunla təmizləmə zamanı zibil qutusunu boşaldın. Zibil qutusu örtüyünün qırağındakı aydın göstəriciləri yoxlayın. Maye göstəricilərdən aşağıda olan sahəni doldurmağa başlayan zaman zibil qutusunu boşaltmaq lazımdır.

Cihazı söndürün. Zibil qutusunu qaldırıb çanaqda boşaldın. Şampunlamanı aparmazdan əvvəl zibil qutusunu yerinə qaytarın.



6 Xalça tam sərbəst qurumalıdır. Lazım gələrsə, artıq mayeni dəsmalla silin.



7 Çoxsəthli şampun sistemini hərtərəfli təmizləyin. Bütün hissələr, xüsusən də lif süpürgə saxlanmadan əvvəl tam qurumalıdır.



8 Lif süpürgəsinin lifləri vaxt keçdikcə yeyiləcək. Ən yaxşı təmizləmə nəticələri üçün lif süpürgəsini müntəzəm olaraq dəyişin.



Vinil və ya kafel döşəmələrin təmizlənməsi

1 Şampun rezervuarını ılıq su ilə birinci xəttə qədər doldurun. Kirby® bərk döşəmə təmizləyicisinin konsetratının bir dolu qapağını rezervuara əlavə edin.

Rezervuarın üstündəki iri qapaqdan istifadə edərək, Kirby® bərk döşəmə təmizləyicisinin bir dolu qapağını şampun rezervuarına tökün. Lazımi həcmdən artıq istifadə etməyin, əks halda həddən artıq köpüklənmə baş verəcək.

İri qapağı şampun rezervuarına salın.

⚠ Yalnız bu məhsulla istifadə üçün nəzərdə tutulan Kirby® bərk döşəmə təmizləyicisinin konsentratı kimi Kirby® təmizləyici məhlullardan istifadə edin. Bu xəbərdarlıq əməl edilmədiyi halda daxili elementlərə zərərlə nəticələnə bilər.



2 Qol şlanqını çoxsəthli şampun ucluğuna bərk birləşdirin.



3 Mayeni cihazın və ya döşəmənin üzərinə sıçramadan şampun rezervuarının aşağısındakı boşluğu hava çıxışının üzərinə yerləşdirin.

Şampun rezervuarını yerində kilidləmək üçün onu cihaza tərəf fırladın.



4 Qol şlanqını çoxsəthli şampun rezervuarının aşağısına qoşun.



5 Lif süpürgəsi döşəməyə toxunana qədər ayaq barmağınızla üst tənzimləmə pedalına təkrar olaraq basın.



6 Köpüyün nəzarət klapanını bərk döşəmə vəziyyətinə saat əqrəbinin istiqamətində keçirin. Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirin. Cihazı işə salın. Cihaz geriyə və irəli hərəkət etdikcə təmizləyici məhlul buraxılır və lif süpürgə döşəməni təmizləyəcək.



7 Köpüyün nəzarət klapanını söndürülmüş (OFF) vəziyyətə keçirin. Döşəməni hərtərəfli təmizləmək və artıq məhlulu yığmaq üçün döşəmənin üzərində təmizləməni bir daha təkrarlayın.



8 Lazım gələrsə, artıq mayeni dəsmalla silin. Xalça tam sərbəst qurumalıdır.



9 Çoxsəthli şampun sistemini hərtərəfli təmizləyin. Bütün hissələr, xüsusən də lif süpürgə saxlanmadan əvvəl tam qurumalıdır.



10 Lif süpürgəsinin lifləri vaxt keçdikcə yeyiləcək. Ən yaxşı təmizləmə nəticələri üçün lif süpürgəsini müntəzəm olaraq dəyişin.



Sehirli parıldatma dəsti

Bərk döşəmələrdə Sehirli parıldatma dəsti ilə güclü parıltı yaradın.



1 Kirby® Sehirli parıldatmasını tətbiq etdikdən əvvəl döməşəni tozsoranla və/yaxud bərk döşəmələr üçün çoxsəthli şampun sistemi ilə təmizləyin. Döşəmə tam sərbəst qurumalıdır.



2 Kirby® sistemini bərk döşəmələrin təmizləyicisinə çevirin (səh. 38). Lif süpürgənin əvəzinə Sehirli parıldatmanın zolaqlı lif süpürgəsini qoşun.



3 Boş şampun rezervuarını hava çıxışına qoşun. Qol şlanqını qoşmağa ehtiyac yoxdur. Bu quruluş hava axınının sistemdən keçməsinə imkan verir.



4 Kiçik hissələrlərdən başlayaraq, Kirby® Sehirli parıldacısını birbaşa olaraq döşəməyə ehtiyatla səpin.

BİLDİRİŞ Tam istifadədən əvvəl Kirby® Sehirli parıldatmasını döşəmənin görünməyən sahəsində sınayın.



5 Tech Drive® gücləndiricisini neytral rejimə keçirilmiş olduğunu yoxlayın və Kirby cihazını işə salın.



6 Sehirli parıldatmanın lif süpürgəsi döşəməyə toxunana qədər ayaq barmağınızla üst tənzimləmə pedalına təkrar olaraq basın. Sehirli parıldatmanı bərabər qatla yaymaq üçün təmizləyicini dərhal səpilmiş sahənin üzərindən keçirin. Maksimal nəticə üçün sahənin üzərindən yalnız bir və ya iki qısa keçid edin; Kirby® sisteminin artıq keçidləri izlərə səbəb ola bilər. Lazım gələrsə, daha çox məhlul səpin.



7 Səthin üzərində gəzməkdən əvvəl döşəmə tamamilə qurumuş olmalıdır.



8 Kirby® Sehirli parıldatmanın yığılmasını kənarlaşdırmaq üçün çoxsəthli şampun sistemini tamamilə söküb ammonyakın və suyun 50/50% məhlulu ilə təmizləyin. Saxlanmadan əvvəl hissələr qurumalıdır. Lazım gələrsə, Kirby® sisteminin altını ammonyakın və suyun 50/50% məhlulu ilə isladılmış yumşaq parça ilə silin.



9 İşıldayan parıldatmanı saxlamaq üçün Kirby® Sehirli parıldatmanı lazımi qaydada yenidən istifadə edin.



Kafel üçün dəst

Kafel döşəmələrinizi hərtərəfli olaraq təmizləyin.



1 Kirby® sistemini bərk döşəmələrin təmizləyicisinə çevirin (səh. 38). Lif süpürgənin əvəzinə kafel üçün lif süpürgəsini qoşun.



2 Boş şampun rezervuarını hava çıxışına qoşun. Qol şlanqını qoşmağa ehtiyac yoxdur. Bu quruluş hava axınının sistemdən keçməsinə imkan verir.



3 Kiçik sahələr üzərində işləyərək, Kirby® kafel üçün ilkin təmizləyicini bozmuş və ya ləkəli kafel xətlərinə ehtiyatla yayın. Kirby® kafel təmizləyicisini birbaşa olaraq döşəməyə səpin.

BİLDİRİŞ Tam istifadədən əvvəl Kirby® kafel təmizləyicisini döşəmənin görünməyən sahəsində sınayın.



4 Tech Drive® gücləndiricisini neytral rejimə keçirilmiş olduğunu yoxlayın və Kirby cihazını işə salın.



5 Kafelin lif süpürgəsi döşəməyə toxunana qədər ayaq barmağınızla üst tənzimləmə pedalına təkrar olaraq basın. Təmizləyicini təmizlənəcək sahənin üzərinə gətirin. Lazım gələrsə, əlavə təmizləyicini səpin.



6 Səthin üzərində gəzməkdən əvvəl döşəmə tamamilə qurumuş olmalıdır.



7 Çoxsəthli şampun sistemini söküb hissələrini yaxalayın. Saxlanmadan əvvəl hissələr qurumalıdır.



Bərk döşəmə lövhəciyi

Döşəmənin mümkün cızıqlara qarşı əlavə qorunması üçün bərk döşəmələrin təmizlənməsi zamanı əlavə olaraq bərk döşəmə lövhəciyini istifadə etmək olar.

BİLDİRİŞ Yalnız quru döşəmələrdə istifadə üçün.



1 Cihazı söndürün. Elektrik ucluğu qaldırmaq üçün ayaq barmağınızla alt tənzimləmə pedalına basın. Bərk döşəmə lövhəciyini ucluğun altından sürüşdürün və yerində kilidlənənə qədər yuxarıya basın.

⚠ Bərk döşəmə lövhəciyini qoşmazdan əvvəl cihazı söndürün, elektrik kabeli divar şəbəkəsindən ayırın, mühərrik və ucluq fırçasının dayandıqlarını yoxlayın.



2 Cihazı birbaşa sovurma təmizləyicisinə çevirmək üçün qayış qaldırıcısını qırmızı xətlər eyni xətt üzərində olana qədər saat əqrəbinin əksinə fırladın.



3 Tech Drive® gücləndiricisini neytral vəziyyətə keçirin. Elektrik ucluğu aşağı salıb döşəməni təmizləyin.



4 Bərk döşəmə lövhəciyini çıxartmaq üçün elektrik ucluğu qaldırıb bərk döşəmə lövhəciyinin arxasındakı çıxıntılara basın.



Turboaksessuar

Turboaksessuar sumbata, cilalayıcı və ya qabıq təmizləyicisi kimi istifadə edilə bilər. Turboaksessuar cihazın qabağındakı şlanqla istifadə edilir.



Sumbata ilə turbotəmizləmə

1 Sumbata turbo təmizləyicisini yığın. İlk növbədə sumbata tozu korpusunu açıb qaldırın.



2 Turboaksessuarın yan tərəfindəki bərkidici yayları yuxarı fırladın. Sumbata kağızının parçasını qabaq bərkidiciyə sürüşdürün və yayı bağlayın. Sumbata kağızını turboaksessuarın aşağısı ətrafında bərk sarıyın, bucağını arxa bərkidiciyə keçirin və yerində bağlayın.

ⓘ Turboaksessuarla üç növ sumbata kağızı təmin edilir. Hər biri standart 1/3 vərəq ölçüsündədir. Yumşaq təmizləmə üçün zəif kağızdan, çətin örtüklər üçün isə bərk kağızdan istifadə edin.



3 Turboaksessuar düz səth üzərində olarkən sumbata kağızı korpusunu arxada boşluq saxlayaraq yenidən qoşun. Qoşma şlanqı daxil edin.



4 Turboaksessuarı qabaqdan və arxadan götürüb Kirby® sistemini işə salın. İşə salmaq üçün turboaksesuarın üstündəki düyməyə basın.

Ehtiyatla üzərinə basaraq onu səthin üzərində yavaşça hərəkət etdirin. Turboaksessuar qalanı özü edəcək. Ona həddən artıq güc vermək və ya üzərinə güclü basmaq olmaz.

⚠ Sumbata ilə cilalama xırda tozun və havanın təhlükəli qarışığı ilə nəticələnə bilər. Cilalayıcıdan yalnız yaxşı havalandırılan sahədə istifadə edin.
- Sumbata tozu ilə toz torbasını diqqətsiz saxlamaq qadağandır.
- Toz torbasını alova boşaltmaq qadağandır.
- Torba 1/3 dolu olduğu zaman onu dəyişin və cihazı işlətdikdən sonra torbanı hər dəfə boşaldın.
- Qarmaqların, mismarların və digər metal əşyaların səthin üzərindən çıxmadığını yoxlayın. Onlar sumbata kağızına və turboaksessuara zərərli ola bilər. Sumbata ilə cilalamadan əvvəl bütün mismarların qapağını basdırmaq və ya kənarlaşdırmaq üçün həmişə çəkicdən və zenkerdən istifadə edin. Cilalama zamanı mismara zərbə qığılcıma səbəb olaraq partlayış və ya alovla nəticələnə bilər.
- Həmişə təhlükəsizlik eynəklərini geyin.



Turboparıldatma

Sintetik quzu yunu lövhəciyini sumbata kağızının qoşulması ilə eyni qaydada qoşun. Toz korpusunu yenidən qoşmayın. O, parıldatma üçün istifadə edilmir.

Turboaksessuardan masa üstünü, panelləri və iri düz səthləri parıldatmaq üçün istifadə edin.



Turbosürtülmə

Neylon torundan olan sürtmə lövhəciyini sumbata kağızının qoşulması ilə eyni qaydada qoşun. Toz korpusunu yenidən qoşmayın. O, sürtülmə üçün istifadə edilmir.

Turboaksessuardan kafel kimi bərk örtükləri sürtülmə ilə təmizləmək üçün istifadə edin. Boyadılmış örtüklərdə istifadə qadağandır.

⚠ Hər hansı istismarı aparmazdan əvvəl cihazı HƏMİŞƏ söndürün və şəbəkədən ayırın.



Elektrik ucluq qayışının dəyişilməsi

1 Elektrik ucluğu çıxardandan sonra qayış qaldırıcısını yaşıl oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin istiqamətində fırladın.



2 Elektrik ucluğun arxasındakı iki kilidi açaraq xalça lövhəciyinin kilidini açın. Xalça lövhəciyini çıxartmaq üçün onun arxa qırağını üzərinizə çəkin.



3 Fırça diyircəyini qaldırdıqdan əvvəl onun ucunda qeyd olunan lif hündürlüyünün göstəricisinə diqqət yetirin. 55-ci səhifəyə baxın.



4 Köhnə qayışı sürüşdürüb çıxardın və yenisi ilə əvəzləyin.

İSTİSMAR



5 Fırça diyircəyini elektrik ucluğa daxil etdikdən əvvəl fırça diyircəyinin uclarındakı qapaqlarda olan rəqəmlər hər iki tərəfdə eyni olmalıdır.

Qayışı və fırça diyircəyini elektrik ucluğa daxil edin. Fırça diyircəyinin bir ucu digərisindən böyükdür. Fırça diyircəyi elektrik ucluğa yalnız bir tərəfdən yerləşdirilə bilər.

Qayışı fırça diyircəyində mərkəzləşdirin.

BİLDİRİŞ Əmlaka zərər riski. Yalnız orijinal Kirby® ehtiyat hissələrindən istifadə edin. Bu xəbərdarlığın əməl olunmaması əmlaka zərərlə nəticələnə bilər.



6 Əvvəlcə xalça lövhəciyini bamperin qabağında yerləşdirib sonra onu arxaya çəkin. Onu iki kilidlə yerində bağlayın.



7 Qayış qaldırıcısını qırmızı oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin əks istiqamətində fırladın. Qayış ucluğun içərisindəki qarmağa ilişməlidir. Elektrik ucluğu cihaza yenidən qoşun.



8 Qayış qaldırıcısını yaşıl oxlar eyni xətt üzərində olana qədər saat əqrəbinin istiqamətində fırladın.



9 Cihazı işə salın və fırça diyircəyini əks etdirən indikator işığının işlədiyini yoxlayın. Bu, fırça diyircəyinin fırlandığını əks etdirir.



Fırça diyircəyi hündürlüyünün tənzimlənməsi

1 Fırça diyircəyi hündürlüyünü tənzimləmək olar. Uzun müddət istifadədən sonra yeyilən fırça tüklərini uzatmaq olar.

53-cü səhifədə elektrik ucluğu qayışının dəyişilməsi üzrə təlimatlara əməl edin. Fırça çıxarıldıqdan sonra fırça diyircəyinin hündürlüyünü seçin.



2 Fırça diyircəyinin uclarını istədiyiniz səviyyəyə qədər fırladın: 1, 2 və ya 3 nişan. Bu səviyyənin hər iki tərəfdə eyni olduğunu yoxlayın. Nişan səviyyəsi artdıqca fırça tükləri o qədər də uzadılacaq.

Fırça diyircəyini yenidən yerinə salın və xalça lövhəciyini qoşun.



Qulluq barədə məsləhətlər

Fırça diyircəyini və qayış relsini bütövlüklə qalıqlardan, ip, saç və digər liflərdən təmiz saxlayın. Bu, fırça diyircəyini maksimal imkanları daxilində istifadə etməyə imkan verəcək.



Elektromühərrikin valını pambıq lifi, tüklər və qırıntılarla dolmasından qoruyun.

⚠ Mühərrikin valı isti ola bilər. Pambıq lifini, tükləri ya qırıntıları təmizləməzdən öncə onun soyumasını gözləyin.

⚠ Elektromühərrikin valını pambıq lifi, tüklər və qırıntılarla dolmasından qoruyun. Bu xəbərdarlıqlar əməl olunmadığı halda qoşma şlanqa zərərlə və həmçinin sağlamlığa kiçik yaxud ortadərəcəli zədə ilə nəticələnə bilər.

Qayışın və fırça diyircəyinin dəyişilməsi

53-cü səhifədə ətraflı təlimatlara baxın.

Çarxların köhnəlməsi və dəyişilməsi

Kirby® çarxları xalçanın yeyilməsinin və döşəmələrə ziyanın qarşısını almaq üçün istehsal edilmiş elastik materialdan hazırlanıb. Uzunmüddətli istifadədən sonra çarxların protektoru yeyiləcək və onları dəyişmək lazım gələcək.

Çarxların protektorunu yoxlayın. Əgər protektorun altından plastik çarx görünürsə, çarxları dəyişmək üçün rəsmi Kirby® Distribyutoruna müraciət edin.

Şnurun dəyişilməsi

⚠ Əgər elektrik şnurda kəsik və ya sürtülmə varsa, CİHAZI İSTİFADƏ ETMƏYİN. Dəyişilmə üçün Kirby® Distribyutoruna müraciət edin.

Yeni əvəzləmə şnur şəbəkəyə qoşulmazdan əvvəl cihaza birləşdirilmiş olmalıdır.

Fənərin dəyişilməsi

Əgər fənərdə bir və ya bir neçə LED lampası korlanarsa, onları dəyişmək üçün rəsmi Kirby® Distribyutoruna müraciət edin.

Cüt izolyasiyalı cihazın istismarı

Cüt izolyasiyalı cihazda torpaqlamanın əvəzinə iki izolyasiya sistemi təmin edilir. Torpaqlama şəbəkəsi lazım deyil, nə də ki cihaza torpaqlama üçün şəbəkəni əlavə etməyə ehtiyac yoxdur. Cüt izolyasiyalı cihaz “DOUBLE INSULATED” (ingiliscə “cüt izolyasiya edilmiş”) (ABŞ və Kanada) sözləri ilə nişanlanır. Cihazın üzərində həmçinin ⧈ işarəsi qeyd oluna bilər.

Cüt izolyasiyalı cihazın istismarı xüsusi diqqət və sistem barədə biliyi tələb edir və yalnız ixtisaslı xidmət personalı tərəfindən həyata keçirilməlidir.

Təhlükəsizliyi və zəmanəti qorumaq məqsədilə bu cüt izolyasiyalı model üçün əvəzləyici hissələr orijinal Kirby® hissələri olmalıdır.

⚠ **DİQQƏT** Elektrik şok təhlükəsi.
- Cihazın texniki xidmətini keçirməzdən əvvəl onu həmişə elektrik şəbəkədən ayırın.
- Zədələnmiş ştepsel ilə istifadə BÜTÜN HALLARDA qadağandır.
- Əgər cihaz gözlənildiyi şəkildə işləmirsə, yerə salınıbsa, zədələnibsə, mənzildən kənar saxlanılırsa yaxud suya düşübsə, onu rəsmi Kirby® Distribyutoruna qaytarın.

Bu xəbərdarlıqların əməl olunmaması ölümlə və ya ciddi xəsarətlə nəticələnə bilər.

NASAZLIQLARIN ARADAN QALDIRILMASI

Mühərrik işə salınmır.

1. Elektrik şnurun elektrik çıxışa qoşulmuş olduğunu və orada enerjinin olduğunu yoxlayın.
2. Şnurun tamamilə cihaza daxil edildiyini yoxlayın.
3. Elektrik şnurun korlanmış olmadığını yoxlayın. Əgər korlanma varsa, şnuru rəsmi Kirby® Distribyutorunda dəyişin.
4. Qoşmanın və ya aksessuarın cihazın qabağında düzgün quraşdırılmış olduğunu yoxlayın. Əgər elektrik ucluq, qoşma şlanq və ya hava girişinin sipəri yerində düzgün yerləşdirilməyibsə, cihaz işləməyəcək.
5. Əgər aşağıdakılardan biri hava çıxışına düzgün quraşdırılmayıbsa, cihaz işləməyəcək: Mini Em-Tor® kollektoru, qoşma şlanq, çoxsəthli şampun rezervuarı.

Cihaz çirki yığmır.

1. Cihaz işləyən zaman fırça diyircəyini əks etdirən indikator işığına baxaraq fırça diyircəyinin fırlandığını yoxlayın. Əgər indikator işıqlanmırsa, fırça diyircəyi sərbəst fırlanmırsa, qayış sürüşür (uzanıb), qırılıb və ya ilişməyib. Qayışı dəyişmək lazım gələ bilər.
2. Fırçanı xalça ilə təmasa yerləşdirmək üçün elektrik ucluğun hündürlüyünü tənzimlənmiş olduğunu yoxlayın. Hündürlüyü tənzimləmək üçün alt tənzimləmə pedalından istifadə edin. 20-ci səhifəyə baxın.
3. Əgər fırça fırlanırsa və xalça ilə təmasdadırsa, tüklərin köhnəlməsini yoxlayın və, lazım gələrsə, fırça diyircəyinin hündürlüyünü tənzimləyin. 55-ci səhifəyə baxın.
4. Birdəfəlik filtr torbasının dolmuş olduğunu yoxlayın. Əgər o dolubsa, onu yeni filtr torbası ilə əvəzləyin.
5. Doldurulma borusunu və hava çıxışını doldurulmaya qarşı yoxlayın.

Cihazı hərəkətə gətirmək çətindir.

1. Əgər mühərrik söndürülübsə, cihazı itələməzdən əvvəl Tech Drive® gücləndiricisinin pedalını neytral rejimdə olduğunu yoxlayın.
2. Əgər mühərrik işləyirsə, Tech Drive® gücləndiricisinin pedalını hərəkət rejiminə keçirin ki, cihazı itələmək asanlaşdırılsın. Tech Drive® gücləndiricisini bərk döşəmələrdə istifadə etməyin.
3. Lazım gələrsə, elektrik ucluğun hündürlüyünü tənzimləyin.

NASAZLIQLARIN ARADAN QALDIRILMASI

Cihaz istifadə edildiyi zaman yanıq rezin iyi gəlir.

1. Cihaz işləyən zaman fırça diyircəyini əks etdirən indikator işığına baxaraq fırça diyircəyinin fırlandığını yoxlayın. Əgər indikator işıqlanmırsa, fırça diyircəyi qıraqların ətrafında liflərin yığıldığına görə dayanmış ola bilər. Cihazı şəbəkədən ayırın. Sonra fırça diyircəyini çıxardın və hər iki qıraqda sərbəst fırlandığını yoxlayın.
2. Qayış natamam ilişmiş və ya tamamilə ilişməmiş ola bilər. Qayış qaldırıcısındakı yaşıl və ya qırmızı oxlar tamamilə uyğun gəldiklərini yoxlayın.
3. Əgər sürüşən qayış mühərrik valında qara qalıq yığırsa, onu polad lifi ilə və ya sumbata kağızı ilə ehtiyatla kənarlaşdırın və qayışı əvəzləyin.

Xarici sabit torbadan və ya birdəfəlik filtr torbasından pis qoxu gəlir.

1. Birdəfəlik filtr torbasını dəyişin. 13-cü səhifəyə baxın.
2. Pambıq parçasına bir neçə damla Odorific II® səpərək onu xarici sabit torbasına atın.
3. Mini Em-Tor® daxilində qırıntıları yoxlayın.
4. Xarici parça torbasını yumaq tövsiyə olunmur.

Çoxsəthli şampun sistemi xalçaların təmizlənməsi zamanı köpük yaratmır.

1. Şampun rezervuarındakı köpüyə nəzarət klapanı saat əqrəbinin istiqamətində xalça vəziyyətinə fırlanmış olduğunu yoxlayın.
2. Qol şlanqını çıxardın və kiçik köpük pərdəsinin şampun rezervuarının alt boşluğunda düzgün yerləşdiyini yoxlayın.
3. Şampun rezervuarını cihazdan çıxardın və çıxış nöqtəsinə qoşulan geniş boşluğun aşağısındakı köpük filtrinin yerində olduğunu yoxlayın.
4. Yalnız Kirby® xalça şampunundan istifadə edin. Rezervuarda suyun və Kirby® xalça şampununun düzgün qarışığının istifadə olunduğunu yoxlayın. 34-cü səhifəyə baxın.
5. Bundan əlavə, düzgün təmizləmə üçün qayışın işə salınmış olduğunu və arakəsmənin qutunun aşağısında düzgün yerləşdiyini yoxlayın. 32-ci səhifəyə baxın.

Əlavə dəstəyə ehtiyacınız var?

Sizin müstəqil və rəsmi yerli distribyutorunuz sizə kömək etməyə hazırdır.

Yaxud The Kirby Company ilə əlaqə saxlayın:

consumer@kirby.com

1-800-494-8586 (ABŞ və Kanada)

KIRBY® EVƏ QULLUQ MƏHSULLARI

BİLDİRİŞ Kirby® evə qulluq sistemi ilə yalnız orijinal Kirby® təmizləyici məhsullardan istifadə edin. Bu xəbərdarlığın əməl olunmaması əmlaka zərərlə nəticələnə bilər.

⚠ **DİQQƏT** – Yanğın və daxili komponent səbəbindən elektrik şok təhlükəsini azaltmaq üçün çoxsəthli şampun sistemində yalnız Kirby® döşəmə təmizləyicisinin konsentratı və Kirby® xalça şampunu kimi Kirby® təmizləyici məhlullardan istifadə edin.

XALÇA TƏMİZLƏNMƏSİ ÜÇÜN MƏHSULLAR

Xalça Şampunu
Xalçaları və palazları dərindən təmizləyir. Xalçalar üçün təhlükəsiz və qeyri-toksik.

Universal ləkə təmizləyicisi
Ləkənin üzərinə səpin və təmiz, ağ parça ilə bulayın.

Çox gəzilən sahələr üçün ilkin təmizləmə
Ağır çirklənmiş sahələrə sampunlamadan bir neçə dəqiqə əvvəl səpin.

Kirby® Köpüyü
Xalçalı pilləkanları, avtomobil ayaqaltılarını və digər əlçatmaz yerləri təmizləmək üçün istifadə edin.

Ağardıcı oksigen əlavəsi
Yüngül boyadılmış xalçaları ağartmaq üçün Kirby® Xalça Şampununa əlavə edin.

EV HEYVANLARININ SAHİBLƏRİ ÜÇÜN TƏMİZLƏYİCİ MƏHSULLAR

Ev heyvanlarının sahibləri üçün xalça şampunu
Ev heyvanlarının ləkə və qoxularını təmizləyərək neytrallaşdırır.

Ev heyvanlarının ləkə və qoxu təmizləyicisi
Təsadüfi halları tez təmizləyir.

EV TƏRAVƏTLƏNDİRMƏSİ ÜÇÜN MƏHSULLAR

HomeFresh ev və xalça təravətləndiricisi
Təravətli, xoş qoxu üçün xalçalara səpin və bir neçə dəqiqədən sonra tozsoranla təmizləyin.

Odorific II® dezodorantı
Zibil qutularını və nəm küncləri təravətləndirir. Bir neçə damla tozsoran torbasını təravətləndirəcək.

KIRBY® EVƏ QULLUQ MƏHSULLARI

BƏRK DÖŞƏMƏ MƏHSULLARI

Citrus Split yapışqan təmizləyicisi
Yarlıqları və yapışqan qalığını təmizləyir.

Bərk döşəmə təmizləyicisi
Bərk örtüklərində çirki və qalıqları zərərsiz təmizləyir.

Kafel üçün ilkin təmizləmə və təmizləyici
Kafel üçün ilkin təmizləmə kafel qıraqlarında dərin ləkələri təmizləyir.
Kafel təmizləyicisi kafel döşəmələrini təmizləyir və bərpa edir.

Sehirli parıldatma
Bərk örtük döşəmələrinə davamlı və güclü parıltı verin.



Kirby® evə qulluq məhsulları rəsmi Kirby® Distribyutorundan, onlayn olaraq www.kirby.com (mümkün olduğu hallarda) yaxud zəng edərək əldə etmək olar:
ABŞ: 1-800-437-7170 (B.e.-C, 8:00 - 17:00 EST)
Avstraliya: 1-800-781-556
Balkan ölkələri: 0800-328-1247
Kanada: 1-800-437-7170
Müstəqil Dövlətlər Birliyi: +7 495 374 72 82
Avropa: 00-800-5472-927
Uzaq Şərq: 0800-328-1247
Yaxın Şərq: 0800-328-1247
Rusiya: 7800500-51-46 yaxud 7495374-72-82
Skandinaviya: 80014747, 0200895477 yaxud 0800-328-1247
Cənubi Afrika: 0800-203-222 yaxud 0800-983-044
Birləşmiş Krallıq: 0800-328-1247
Məhsul təklifləri regiondan asılı olaraq fərqlənə bilər.

ƏLİFBA GÖSTƏRİCİSİ

A
Aksessuar kilidi 23
Ayaq barmağı ilə tənzimləmə pedalı
Alt pedal 20
Yuxarı pedal. 20

B
Bərk döşəmə lövhəciyi 50
Birbaşa sovurma ilə təmizləmə 17
Birdəfəlik filtr torbası 13

C
Cihazın qurulması 11

Ç
Çoxsəthli şampun sistemi
Bərk döşəmələr. 38
Xalçalar. 31
Çoxsəthli şampun sistemi
Rezervuar. 33
Çoxsəthli şampun sistemi
Zibil qutusu 31

D
Dar yerlər üçün alət 25
Daşınan sampunlaşdırıcı 29
Daşınan sıçrayıcı 27
Daşınan təmizləyici 21
Döşəyin təmizlənməsi . . .22
Pilləkanların təmizlənməsi 22
Daşınma
Aşağı qulp 16
Yuxarı qulp. 16
Divar və tavan fırçası. 25
Döşəyin təmizlənməsi. 22

E
Elektrik ucluq
Çıxarılma 22
Enerji dəyişdiricisi 12

Ə
Əlavə aksessuarlar 31

F
Fırça diyircəyi
Ayırma 16
Bağlanma. 17
Fırça diyircəyinin hündürlüyü 55
Tənzimləmə 55
Fırça diyircəyini əks etdirən indikator işığı. 17

H
Hava doldurucusu/ boşaldıcısı 25

X
Xarici sabit torba 18

İ
İstismar
Qayışın dəyişilməsi. 53

K
Kafel üçün dəst 48
Kanistr tipli təmizləyici 22

Q
Qayış qaldırıcısı 16
Qayışlar
Dəyişilmə 53
Qoşma zolaq 23
Qoşmalar 24
Dar yerlər üçün alət 25
Divar və tavan fırçası 25
Hava doldurucusu/ boşaldıcısı 25
Qoşma şlanq 24
Səth ucluğu 24
Sovurmanın tənzimləmə qulpu. 25
Toz fırçası. 24
Universal alət. 25
Uzatma boruları 24
Yumşaq mebel üçün ucluq 24
Zippbrush. 30

L
Lif süpürgə 38

M
Mini Em-Tor® kollektoru. 18

N
Nasazlıqların aradan qaldırılması 58

S
Sehirli parıldatma dəsti 45
Səth ucluğu 24
Sistemin hərəkəti
Söndürülmə. 14
Sistemin qaldırılması. 16
Sovurmanın tənzimləmə qulpu. 25

Ş
Şaquli təmizləyici. 20
Şaquli tutacaq
Qurulma. 11
Kilidləmə 15
Şlanq 24
Qoşulma. 24
Şnurun saxlanması 19

T
Tech Drive® gücləndiricisi . . .20
Təmizləmə hündürlüyü
Tənzimləmə 20
Təmizləyici məhsullar 60
Torba
Çıxarılma 18
Qoşulma. 11
Torbanın buraxılış düyməsi . .18
Torbanın dəstək qayışı 13
Toz fırçası 24
Turboaksessuar. 51
Turboparıldatma. 52
Sumbata ilə turbotəmizləmə 51
Turbosürtülmə 52
Tutacağın əyilən kilidi 15
Tutacağın kilidlənməsi 15

U
Universal alət 25
Uzatma boruları. 24

Ü
Üfürücü. 26

Y
Yuxarı şnur qarmağı 19
Yumşaq mebel üçün ucluq . .24

Z
Zippbrush 30

Aşağıdakı bir və ya bir neçə patent və dizayn qeydiyyatlarına əsasən hazırlanıb.
Digər patent və dizayn qeydiyyatları gözlənilir.

ABŞ
4947512
5007133
5086536
5115537
7794516
D600868
D672104
D762,992
D778,624
D780,390
D789,632

Avstraliya
322271
334155
334156
2008207570
361319
362355
361351

Avstriya
ATE142865

Belçika
0584961

Benelüks
38610-00

Kanada
127585
137881
2638641
2742137
Ⓓ Kirby®162067
Ⓓ Kirby®162071
Ⓓ Kirby®162068

Çin
ZL200830142963
ZL200930237374.5
ZL201130007059
ZL200910000791.7
ZL201530091045.X
ZL201530090954.1
ZL201530090953.7

Danimarka
0584961

Avropa (dizayn)
002669291-0001
002671248-0001
002671248-0002
002671248-0003
002669689-0001

Fransa
902235
0584961
20106183

Almaniya
69304847
402010006532.8
69606774

İtaliya
0584961
98401
98546

Yaponiya
2011083

Koreya
0822516
0829774-0001
0829774-0002
0829774-0003
0830022

Meksika
175879

Niderland
0584961

Yeni Zelandiya
411288
570620
420040
420041
420039

Portuqaliya
0584961

Rusiya
73673
2378973
81234
99653
98535
100549

Cənubi Afrika
A2008/01498
A2010/01540

İspaniya
2092232

İsveç
49181
0584961

İsveçrə
0584961

Birləşmiş Krallıq
0433439
0584961
1090578

Digər patentlər gözlənilir

Patent Siyahısı 6/2/2017

Sualınız var? Kömək lazımdır?

Sizin yerli, müstəqil və rəsmi distribyutorunuz Kirby® evə qulluq sisteminin alınmasına və ya istifadəsinə dair istənilən suala cavab verməyə hazırdır.

Yaxud The Kirby Company ilə əlaqə saxlayın:

consumer@kirby.com
ABŞ: 1-800-494-8586 (B.e.-C, 8:00 - 17:00 EST)
Avstraliya: 1-800-781-556
Balkan ölkələri: 0800-328-1247
Kanada: 1-800-494-8586
Müstəqil Dövlətlər Birliyi: +7 495 374 72 82
Avropa: 00-800-5472-9272
Uzaq Şərq: 0800-328-1247
Yaxın Şərq: 0800-328-1247
Rusiya: 7800500-51-46 yaxud 7495374-72-82
Skandinaviya: 80014747, 0200895477 yaxud 0800-328-1247
Cənubi Afrika: 0800-203-222 yaxud 0800-983-044
Birləşmiş Krallıq: 0800-328-1247

Müştəri xidmətləri
The Kirby Company
1920 West 114th Street
Cleveland, OH 44102

Ehtiyat hissələri və ləvazimatlar üçün:

www.kirby.com (mövcud olduğu halda)
imd@kirby.com

ABŞ: 1-800-437-7170 (B.e.-C, 8:00 - 17:00 EST)
Avstraliya: 1-800-781-556
Balkan ölkələri: 0800-328-1247
Kanada: 1-800-437-7170
Müstəqil Dövlətlər Birliyi: +7 495 374 72 82
Avropa: 00-800-5472-9272
Uzaq Şərq: 0800-328-1247
Yaxın Şərq: 0800-328-1247
Rusiya: 7800500-51-46 yaxud 7495374-72-82
Skandinaviya: 80014747, 0200895477 yaxud 0800-328-1247
Cənubi Afrika: 0800-203-222 yaxud 0800-983-044
Birləşmiş Krallıq: 0800-328-1247

P/N 776516 Rev. B - Azerbaijan Printed in U.S.A. ©2017 The Scott Fetzer Company

For assistance, contact your local authorized Distributor.

The Kirby Company, a division of The Scott Fetzer Co.,
1920 West 114th Street, Cleveland, OH 44102, U.S.A.

U.S.A./Canada Parts & Supplies: **1-800-437-7170** imd@kirby.com
Consumer Relations: **1-800-494-8586** consumer@kirby.com

Australia: **1800 781 556**
Europe: **00 800 547 292 72**
Russia: **7 800 500 51 46 or 7 495 374 72 82**
South Africa: **0800-203-222**
United Kingdom: **0800-328-1247**

www.kirby.com